**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

№082/488

**Bakı şəhəri** „11" dekabr **2025-ci il**

**"Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması ilə bağlı tədbirlər haqqında" 2025-ci il 24 noyabr tarixli 068/474 nömrəli qərara dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) 2025-ci il 24 noyabr tarixli 068/474 nömrəli qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

1. "Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin 2025-ci il 24 noyabr tarixli 068/474 nömrəli qərarının 2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

1.1. 2026-cı il 1 yanvar tarixindən etibarən diri ev quşlarının, o cümlədən 1 (bir) günlük cücələrin (1 (bir) günlük damazlıq və yumurtalıq cücələr, zoomağazalara, heyvanat parklarına və nümayiş məqsədilə gətirilən dekorativ quşlar istisna olmaqla) Azərbaycan Respublikasına idxalına müvəqqəti məhdudiyyət tətbiq olunsun.

2. Bu qərarın icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət ünvanlansın.

3. Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

4. Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentlik Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

5. Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan yükün ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
11.12.2025